No: 04 2025
https://doi.org/10.64400/ea25-4-09
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

**PEDAQOGİKA**

# RƏQƏMSAL DÖVRDƏ NAXÇIVAN ETNOPEDAQOJİ NÜMUNƏLƏRİNİN GƏNCLƏRİN MƏNƏVİ-ƏXLAQ TƏRBİYƏSİNDƏ ROLU

**Sərxan MUSAYEV**
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
*Yazışılan müəllif: serxanmusayev@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* 05.12.2025
*Nəşr edilmə tarixi:* 22.12.2025

**AÇAR SÖZLƏR:**
etnopedaqogika, rəqəmsal dövr, gənclərin tərbiyəsi, xalq tərbiyəsi.

**XÜLASƏ**
Müasir dövrdə texnologiyanın sürətli inkişafı bir çox məsələni də dəyişməyə başladı. Artıq texnologiya həyatımıza sürətlə təsir göstərən əsas vasitələrdəndir. Texnologiya elə bir hal alıb ki, vaxtımızın böyük əksəriyyəti onunla keçir. Gənclər bu texnologiyadan daha çox istifadə edirlər. Texnologiyanın həyatımıza bu qədər nüfuz etməsi, xüsusilə gənc nəslin formalaşmasında yeni çağırışlar yaradır. Gənclər ənənəvi dəyərlər və milli mədəniyyət haqqında bilgiləri daha çox elektron mənbələrdən əldə edir, lakin bu zaman informasiyanın doğruluğu və dəyərlərə təsiri məsələsi ön plana çıxır. Belə bir şəraitdə etnopedaqoji materiallardan istifadə edərək gənclərin milli-mənəvi tərbiyəsinə töhfə vermək vacibdir. Məqalədə etnopedaqoji elementlərin rəqəmsal tədris mühitinə inteqrasiyası gənclərin texnologiyadan istifadəsini daha məqsədyönlü hala gətirə biləcəyindən. Məsələn, interaktiv oyunlar, rəqəmsal nağıllar, virtual muzeylər və digər innovativ yanaşmalar vasitəsilə milli kimlik və mənəvi dəyərlər yeni nəsilə daha cəlbedici formada çatdırıla biləcəyindən, texnologiyadan düzgün istifadə qaydalarından, milli tərbiyə prosesinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasından danışılır..

## GİRİŞ

Etnopedaqogika – xalqın təcrübəsinə əsaslanan tərbiyə üsulları, adət-ənənələr və milli-mədəni dəyərlərin təbliği deməkdir. Bütün dövrlərdə bu materillardan istifadə gənc nəslin formalaşmasında bir başa rol oynamışdır. İndiki dövrümüzdə də pedaqoqlar etnopedaqoji materialları bu cəhətdən yüksək qiymətləndirir. Ancaq həyatımızın texnologiya ilə sıx surətdə bağlılığı bu vasitələrin texnologiya vasitəsilə təbliğinə ehtiyac yaradır. Müasir rəqəmsal dövrdə bu materiallardan istifadə edərək gənclərə tərbiyəvi təsir göstərmək mümkündür. Virtual platformalarda milli dəyərlərə əsaslanan tədris resurslarının hazırlanması, interaktiv dərs vəsaitlərinin yaradılması və sosial şəbəkələr vasitəsilə milli-mənəvi mövzuların geniş şəkildə paylaşılması bu istiqamətdə atıla biləcək addımlardandır.

Texnologiyanın həyatımıza bu qədər təsir etdiyi bir dövrdə etnopedaqoji materiallardan rəqəmsal formada istifadə etməklə gənclərin milli-mənəvi dəyərlər əsasında yetişdirilməsi və onların mədəni kimliyinin qorunması mümkündür. Bu yanaşma müasir təhsil sistemində yeni imkanlar açaraq, gələcək nəsillərin həm texnoloji biliklərə, həm də dərin milli-mənəvi dəyərlərə sahib olmalarına töhfə verə bilər. Bütün bu deyilənlər işin aktuallığını göstərir.

Bu sahədə araşdırmalar mövcuddur. Pedaqogika elmləri doktoru, professor İsmayıl Əliyev, dosent Lalə Allahverdiyeva, Məhcəbin Qədimbəyli, dosent Taleh Xəlilov folklorşünas professor Paşa Əfəndiyev dosent, Rafiq Babayev fərqli istiqamətlərdə bu sahəni araşdıran alimlərimizdəndir. Pedaqogika istiqaməti üzrə İsmayıl Əliyev, Taleh Xəlilov, Sədaqət Əliyeva və Lalə Allahverdiyevanın araşdırmaları Naxçıvan Etnopedaqoji materiallarının insan şəxsiyyətinə, tərbiyəsinə təsiri istiqaməti üzrə aparılmışdır. Bu materialların təsirinin yaxşı bir nəsil formalaşdırmaqda ciddi bir mexanizm olduğu qənaətini onların əsərlərində görmək mümkündür. Folklorşünaslar isə bu materialları toplayaraq gənc nəsil üçün bu materialları əl çatan etmişdir. Ancaq bizim məqaləmiz daha çox rəqamsal mühitdə bu materialların istifadə imkanları və yeni təsir mexanizmlərini araşdırmaq olduğundan öz orijinalllığını qoruyur.

Məqalədə biz emprik metodlardan istifadə etmişik. Xüsusən müşahidə metodu vasitəsilə biz gənc nəslin sosial media və digər elektron resuslarda qarşıladğı Naxçıvan etnopedaqoji materiallarına münasibətini və bu materialların onlara təsiri imkanlarını araşdıra bilmişik.

Müzakirə

Hər bir xalqın bədii təfəkkürünün və təcrübəsinin yekun nəticəsi olan etnopedaqoji materiallar onun sonrakı taleyini müəyyənləşdirən amilə çevrilir. Bunu biz təcrübədə görməklə yanaşı araşdırmalarda da görürük. Bu elmi istiqaməti elmi ədəbiyyata gətirən Volkova görə "xalq pedaqogikası" — xalq kütlələrinin tarixən topladığı, təcrübədən, adət-ənənələrdən, folklordan, gündəlik həyatın tərbiyəvi elementlərindən əmələ gələn pedaqoji təcrübələrdir. ( Волков Г.Н. Этнопедагогика. – М., 2000. – 176 с.) Və bu təcrübələr də xalqın mədəni inkişafının təkanverici bir qüvvədir. Son zamanlarda insanlara təsir vasitəsi kimi texnikanın rolu artmaqdadır. Televizyanın və social medianın bütün həyatımızda özünə yer tapması bu cür təsir imkanları olan etnopedaqoji materialların da bu vasitələrlə təbliği imkanlarının araşdırılmasına ehtiyacı formalaşdırır.

Etnopedaqoji materiallar insanların, xüsusən də uşaqların şəxsiyyət kimi formalaşmasında. Bunun üçün təşviq mexanizminin qurulması xüsusi önəm daşıyır.

Aparılan araşdırma göstərir ki, rəqəmsal dövrdə gənclərin dünyagörüşünün formalaşmasında informasiya texnologiyalarının rolu danılmazdır. Xüsusilə sosial media, rəqəmsal platformalar və elektron resurslar gənclərin davranış modellərinə, dəyərlər sisteminə və mənəvi baxışlarına birbaşa təsir göstərir. Bu kontekstdə Naxçıvan etnopedaqoji nümunələrinin rəqəmsal mühitə uyğunlaşdırılaraq təqdim olunması milli-mənəvi tərbiyə baxımından mühüm imkanlar yaradır.

Tik-tok və İnstaqram kimi social media platformalarında keçirilən vaxt və istifadəçilərin qeyri rəsmi yaş göstəriciləri bu platformalarda bu cür imkanların geniş şəkildə təşviqinə əsas verir. (Conde del Rio, 2021). Ümumiyyətlə bu cür mətnlərin mövcutluğu və yayılması bir çox cəhətdən cəmiyyətin inkişafına təsir edə bilər. Araşdırmalara baxdıqda görmək mümkündür ki, son illərdə didaktik mətn və onun əsasında hazırlanmış vizual materiallar olduqca azlıq təşkil edir (Bakhtin, 1985).

Müzakirə olunan nəticələr göstərir ki, etnopedaqoji materialların rəqəmsal formada təqdim edilməsi uşaqların və gənclərin həm psixoloji, həm də idraki inkişafına müsbət təsir göstərir. Xalq nağılları, atalar sözləri, mərasimlər və ənənələr əsasında hazırlanmış rəqəmsal məzmunlar gənclərin diqqətini cəlb etməklə yanaşı, onların milli kimlik şüurunun formalaşmasına xidmət edir. Bu isə müasir dövrdə tez-tez rast gəlinən dəyər boşluğunun aradan qaldırılmasına kömək edir.

Digər tərəfdən, rəqəmsal mühitdə mövcud olan informasiya bolluğu və məlumat çirkliliyi xüsusilə uşaq və gənclərin yanlış düşüncə tərzinə yönəlməsinə səbəb ola bilər. Bu problem yalnız texniki nəzarətlə deyil, eyni zamanda məzmun baxımından düzgün və faydalı alternativlərin təqdim olunması ilə həll edilə bilər. Etnopedaqoji materialların sosial media, təhsil platformaları və interaktiv tətbiqlər vasitəsilə yayılması bu baxımdan effektiv vasitə kimi çıxış edir.

Müzakirə nəticəsində aydın olur ki, etnopedaqogikanın rəqəmsal mühitdə tətbiqi yalnız keçmişin qorunması deyil, eyni zamanda gələcək nəslin sağlam mənəvi-əxlaqi əsaslar üzərində yetişdirilməsi üçün strateji əhəmiyyət daşıyır. Bu prosesdə təhsil müəssisələri, ailə və media qurumlarının birgə fəaliyyəti xüsusi önəm kəsb edir. Beləliklə, Naxçıvan etnopedaqoji nümunələrinin rəqəmsal dövrdə təşviqi gənclərin mənəvi tərbiyəsinin gücləndirilməsində mühüm və davamlı təsirə malikdir.

## NƏTİCƏ

Bütün bu deyilənlərdən bu nəticəyə gəlirik ki, Rəqəmsal dövrdə Naxçıvan etnopedaqoji nümunələrinin gənclərin mənəvi-əxlaq tərbiyəsində rolu yüksəkdir və bu işlə bağlı işlərin aparılması və təşviqi xüsusi önəmlidir.

Bu cür materialların rəqamsal mühitdə artması uşaqların psixoloji və idraki inkişafına yaxından kömək edir.

Mövcud məlumat çirkliliyinin mövcudluğu ictimai düşüncəni korladığı kimi uşaq və gənclərdə də yalnış düşüncəni formalaşdıra bilər və bunun qarşısının alınmasının bir yolu da məhz etnopedaqoji materialların uşaqlara sosial media və digər vasitələrlə çatdırılmasıdır.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Əliyeva Sədaqət Ağarəhim qızı. Etnopedaqogikan1n əsaslari. ADPU –nəşriyyatı (Darslik). BAKI - 2016. 237 səh
2. Волков Г.Н. Этнопедагогика. – М., 2000. – 176 с
3. Bakhtin, M. (1985). "El problema del texto en la lingüística, la filosofía y otras ciencias humanas. Ensayo de análisis filosófico", en Mikhail Bakhtín, Estética de la creación verbal, México, Siglo XXI, pp. 294-323.
4. Conde del Rio, M. (2021). "Estructura mediática de Tiktok: estudio de caso de la red social de los más jóvenes", en Revista de Ciencias de la Comunicación e Información, No. 26, pp. 59-77, https://doi.org/10.35742/rcci.2021.26.e126 (28.05.2024).


## ABSTRACT

## THE ROLE OF NAKHCHIVAN ETHNOPEDAGOGICAL EXAMPLES IN THE MORAL AND ETHICAL EDUCATION OF YOUTH IN THE DIGITAL AGE

**Serkhan Musayev**


In the modern era, the rapid development of technology has begun to change many aspects of life. Technology has become one of the main tools that strongly influences our daily activities, and a significant portion of our time is now spent using it. Young people, in particular, are the most active users of digital technologies. The deep penetration of technology into everyday life creates new challenges, especially in the formation of the younger generation. Today, young people obtain information about traditional values and national culture mainly from electronic sources; however, the issues of information accuracy and its impact on values become especially important.

In such circumstances, contributing to the national and moral education of young people through the use of ethnopedagogical materials is essential. The article discusses how the integration of ethnopedagogical elements into the digital learning environment can make young people's use of technology more purposeful. Through interactive games, digital tales, virtual museums, and other innovative approaches, national identity and moral values can be conveyed to the younger generation in a more attractive and effective manner. The article also addresses the proper use of technology and the adaptation of the national education process to the requirements of the modern era.


**Keywords:** *ethnopedagogy, digital age, youth education, folk education*

## РЕЗЮМЕ

## РОЛЬ НАХЧЫВАНСКИХ ЭТНОПЕДАГОГИЧЕСКИХ ОБРАЗЦОВ В ДУХОВНО-НРАВСТВЕННОМ ВОСПИТАНИИ МОЛОДЁЖИ В ЦИФРОВУЮ ЭПОХУ

**Серхан Мусаев**


В современный период стремительное развитие технологий начало существенно изменять многие сферы жизни. Технологии стали одним из основных средств, оказывающих сильное влияние на повседневную деятельность человека, и значительная часть нашего времени проходит в цифровой среде. Молодёжь является наиболее активным пользователем современных технологий. Глубокое проникновение технологий в жизнь общества создаёт новые вызовы, особенно в процессе формирования подрастающего поколения. В настоящее время молодые люди получают знания о традиционных ценностях и национальной культуре в основном из электронных источников, при этом особую актуальность приобретает вопрос достоверности информации и её влияния на ценностные установки.

В таких условиях важное значение имеет использование этнопедагогических материалов в целях духовно-нравственного воспитания молодёжи. В статье рассматривается, каким образом интеграция этнопедагогических элементов в цифровую образовательную среду может сделать использование технологий более целенаправленным. Посредством интерактивных игр, цифровых сказок, виртуальных музеев и других инновационных подходов национальная идентичность и

духовные ценности могут быть представлены молодому поколению в более привлекательной и доступной форме. Также затрагиваются вопросы правильного использования технологий и адаптации процесса национального воспитания к требованиям современного времени.

**Ключевые слова:** *этнопедагогика, цифровая эпоха, воспитание молодёжи, народное воспитание*